*Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı*

# Vətən müharibəsi hekayələri

**Hənifə Səlifova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: henife.selifova87@mail.ru

**Annotasiya.** 44 günlük Vətən müharibəsinin qalibiyyətlə başa çatması bütün sahələrdə olduğu kimi, ədəbiyyatda da canlanma yaratdı. Yaranan yeni əsərlərdə qalib döyüşçü obrazı ilə yanaşı, Vətən, narahat ana, sevgili obrazları da yeni məndəricədə təqdim olunurdu. Məqalədə qalib müharibə ədəbiyyatının konkret nümunələri olan bəzi hekayələr təhlilə cəlb olunmuşdur. Qələbə ruhunda yazılmış hekayələrin məzmunu, ideyası, obrazların daxili-mənəvi dünyası, vətənpərvərlik motivlərinin yeni paradiqmada təqdimi məqalənin əsas qayəsini təşkil edir.
**Açar sözlər:** Azərbaycan, Qarabağ mövzusu, Vətən müharibəsi, hekayə, müharibə ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 11.02.2022; qəbul edilib – 29.02.2022

# Stories of the patriotic war

**Hanifa Salifova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: henife.selifova87@mail.ru

**Abstract.** The victorious end of the 44-day Patriotic War revived the literature, as in all areas. Along with the image of a victorious warrior, motherland, anxious mother and lover were presented in new content in the new works. The article analyzes some of the stories that are concrete examples of victorious war literature.
The main idea of the article is the content of the stories written in the spirit of victory, the idea, the inner-spiritual world of the images, and the presentation of patriotic motives in a new paradigm.
**Keywords:** Azerbaijan, Karabakh issue, Homeland War, story, war literature

**Article history:** received – 11.02.2022; accepted − 29.02.2022

## Giriş / *Introduction*

Qarabağ mövzusu, Azərbaycanın əzəli torpağı Qarabağın dünəni və bu günü həmişə ədəbiyyatın diqqət mərkəzində olmuşdur. Akademik İsa Həbibbəyli  bu mövzu haqqında yazır: “Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında həmişə geniş mənada Vətən mövzusunun atributlarından biri kimi qəbul edilmişdir. Ona görə də Azərbaycan şifahi xalq ədəbiyyatında və yazılı ədəbiyyatda Qarabağ uzun əsrlər boyu əsasən tərənnüm edilən, vəsf olunan Vətən torpağı kimi canlandırılmışdır” [3].

Xalq yazıçısı Anar yazır: “Azərbaycanın müxtəlif nəsillərə aid yazıçılarının Qarabağdan danışması, yazması gələcəyə mesaj kimidir. Bir anlıq düşünürəm ki, qalib ölkənin yazıçısı olmaq ta-

mam ayrı səadət imiş. Şükür ki, bu günləri yaşamaq və Qarabağ mövzusunda yazılmış əsərləri qəhrəmanlıq dastanı kimi oxuculara təqdim etmək nəsibimiz oldu” [1, s.6].

Fəlsəfə elmləri doktoru Rahid Ulusel yazır: “Vətən Müharibəsindəki Qələbə anından başlayaraq Azərbaycan ədəbiyyatı – **qalib Azərbaycanın ədəbiyyatıdır!** Çağdaş ədəbiyyatımız bu qalibiyyətin eyforiyasını yox, ağırlıq və məsuliyyətini, həm də əzəmət və qüdrətini yaşamalı, bədii mədəniyyətimizin tarixi-genetik özəlliyindən gələn müdriklik psixologiyasının dərinliklərini üzə çıxarmalıdır. Qüdrətli dövlətin qüdrətli ədəbiyyatının doğuluş anı yetişmişdir! Bundan sonra Azərbaycan bədii sözü böyük ədəbiyyatın estetik meyarlarını yalnız yüksəltmək, özünüdərk və zənginləşmə potensialını artırmaq haqqına sahibdir. Gərək Azərbaycan yazıçısı – Azərbaycan ordusunun əsgəri Şuşanı fəth etdiyi tək ədəbiyyatın Şuşa zirvəsini fəth etsin!” [9, s.79]

## Əsas hissə / *Main Part*

44 günlük Vətən müharibəsində Vətən uğrunda canını fəda edən igid oğulların sayəsində otuz illik həsrətə son qoyuldu. Ordumuzun qələbəsi ədəbiyyatda Qarabağ mövzusuna yeni bir “can” verdi. Bu qələbənin qazanılmasında ədəbiyyat da öz töhfəsini əsirgəmədi. Əsgərlərin döyüş əzmini yüksəltmək üçün şeirlər, poemalar, hekayələr yazıldı, mahnılar bəstələndi, kütləvi informasiya vasitələri, qəzet və jurnallar (“Azərbaycan”, “Ulduz” jurnalları, “Ədəbiyyat qəzeti”, “525-ci qəzet” və başqaları) sosial şəbəkələr, müxtəlif saytlar Qarabağdan yazdılar. Dövrün hadisələrini daha çevik işıqlandıran şeir janrı bu dəfə də aparıcılığı qoruyub saxladı. Nəsr sahəsində də hekayə janrına daha çox üstünlük verildi. AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu öz məqaləsində qələbənin qazanılmasında ədəbiyyatın rolunu yüksək qiymətləndirir: “Vətən müharibəsində qələbənin qazanılmasında bütün Azərbaycan xalqı, müzəffər Azərbaycan ordusu ilə birgə, şəksiz ki, ədəbiyyatın da öz payı olmuşdur. Ən azı barışmazlıq ruhunu yaşatmaqla, gənc nəsli Qarabağ məsələsi ətrafında səfərbər etməklə ədəbiyyat Azərbaycan cəmiyyətini bu qələbəyə hazırlamışdır. Təkcə onu demək kifayətdir ki, son 30 il ərzində Azərbaycan ədəbiyyatının başlıca bir mövzusu olmuşdur – Qarabağ müharibəsi” [10, s.113].

Mədəniyyət nazirliyi 21 oktyabr 2020-ci ildə üç əsas janr üzrə (hekayə, esse, poeziya) “Vətənpərvərlik mövzusunda ədəbi müsabiqə” elan etdi. Müsabiqədə üç əsas kateqoriya üzrə qaliblər müəyyənləşdirildi. Hekayə janrı üzrə “peşəkar yaradıcı şəxslər” kateqoriyasında Fərhad Kərimlinin “Bir ovuc torpaq”, “Həvəskar yaradıcı şəxslər” kateqoriyasında Tural Əzimzadehin “Bozdar əfsanəsi”, “10-15 yaş arası uşaqlar” kateqoriyasında isə Abdullah Hüseynlinin “Kaş ki, yuxum çin olaydı” hekayələri birincilik qazandı. Müsabiqə iştirakçılarının əsərlərinin toplandığı kitab bu yaxınlarda “44 fəsil” [1] adı ilə çap olundu.

Noyabrın 21-də “Mücrü” nəşriyyatının elan etdiyi “Qarabağ Azərbaycandır” adlı qısa hekayə müsabiqəsində iştirak edən əsərlər 72 səhifəlik kitab formasında nəşr olundu. Kitabda toplanmış hekayələr az sözlə dərin məna ifadə etmək xüsusiyyəti ilə seçilir. Adil Misirli adlı müəllifin təqdim etdiyi “Qarabağ Azərbaycandır” hekayəsinə diqqət yetirək: “27 il idi ki, yatmışdım. Tanrı məni oyatdı. Dedi bəsdir yatdığın. Qalx, təqvimə bax! Baxdım: 27 sentyabr 2020-ci il. Qarabağ Azərbaycandır!” [8, s.16] Kitabda bir cümlədən ibarət hekayəyə də rast gəlmək olur. Yusif Nazim Ərəbsoyun “Sonuncu şəhid” hekayəsi cəmi bir cümlə ilə müharibənin qələbə ilə başa çatmasını oxucuya çatdırır. “Bir ağ göyərçin dimdiyində qızılgül şəhidin başdaşına qondu!” [8, s.64] Xanım Anelanın “Cənnətin qapıları” hekayəsi özünəməxsus ifadə tərzi ilə seçilir. “Cənnətin qapılarında gənc adamı üzünurlu mərd bir adam qarşıladı. Gənc adam nurüzlü adama yaxınlaşıb təzim edərək:
- Əsgər Dövlətzadə Cəbrayıl. Qanınız yerdə qalmadı, cənab General! Qarabağ Azərbaycandır! – dedi” [8, s.4].

29.01.2021-ci ildə Ukraynada “Dmitro Buraqo” nəşriyyat evində Qarabağ mövzusunda roman, povest və hekayələrdən ibarət “Bayrakdar” antologiyası nəşr olundu.

2021-ci ildə yazıçı Azad Qaradərəlinin Vətən müharibəsi hekayələrinin toplandığı “Sevgilim Vətən” [2] adlı kitabı “Mücrü” nəşriyyatında çap olundu. Kitabdakı hekayələr Vətən müharibəsi şəhid və qazilərinə həsr olunmuş sənədli hekayələrdir. Müəllif özü bu hekayələri “radio-hekayə”

adlandırmaqla əsərlərin yığcam olmasına işarə edir. Kitabda "Polad kimi", "Mübarizlər", "Polkovnikin son döyüşü", "Mən də şəhidəm", "Vətənin yetimi", "Torpağa qan töküləndə Vətən olur", "Sevgilim Vətən", "Türk əli", "Gözəgörünməzlər" və s. kimi 28 böyük, 6 kiçik hekayə toplanmışdır. Müəllif Vətən müharibəsinin yeganə şəhid qadını Arəstə Baxışovaya həsr etdiyi "Sevgilim vətən" hekayəsini həcminə görə povest adlandırır. Kitab Milli Qəhrəman general Polad Həşimovun xatirəsinə həsr olunmuş "Polad kimi" hekayəsilə başlayır. Müəllif ölməz general Polad Həşimovun obrazını oxucuya mərd, yenilməz, qürurlu bir "paşa" kimi tanıdır. Müəllifin Milli Qəhrəman Mübariz İbrahimovun, Şükür Həmidovun, şəhid zabit, tabor komandiri Surxay Noçuyevin, mahnıları ilə dastana dönən şəhid Xudayar Yusifzadənin, şəhid Həsən Rzazadənin, şəhid Cavid Həsənovun, şəhid leytenant Teymur Abbasovun, şəhid kapitan Elçin İsmayılovun, şəhid Oktay Səfərovun, şəhid Əmrah Rəcəbovun, şəhid Sənan Abdullayevin, şəhid Xaqani Məmmədovun, şəhid Rövşən İsmayılovun, şəhid Samir Sarıyevin və qazi Orxan Məmmədzadənin, qazi Vidadi Ağagülovun, qazi Sərvin Cavadzadənin, qazi Kamran Həmzəyevin əziz xatirəsinə həsr etdiyi sənədli hekayələr gələcək nəslə qəhrəman oğulların tanıdılmasında böyük tərbiyəvi əhəmiyyətə malikdir.

Dövrün hekayə mənzərəsinə nəzər yetirdikdə "Ədəbiyyat qəzeti"nin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirmək lazımdır. Qəzet bütün saylarında Vətən müharibəsinə həsr olunmuş hekayələr dərc edir. 44 günlük müharibə dövründə də "Ədəbiyyat qəzeti"nin böyük xidmətləri oldu. Qəzetin baş redaktoru Azər Turanın təbirincə desək: "Vətən müharibəmizin ədəbiyyat salnaməsi daha çox "Ədəbiyyat qəzeti"ndə yaradılır".

Qarabağ mövzusunda indiyə qədər yazılan hekayələrdə matəm, hüzn, kədər motivləri üstünlük təşkil edirdi. 44 günlük müharibə dövründə və ondan sonra yazılan hekayələr isə zəfər ruhlu, qələbə sevincli olduğundan öz yeniliyi və orijinallığı ilə seçilir. Lakin bu hekayələrin də əksəriyyətinin süjeti I Qarabağ müharibəsinin ağrı-acılarından, yurd həsrətindən, vətən sevgisindən qaynaqlanır.

Vətən müharibəsindən sonra yazılan hekayələrə Kənan Hacının "Qələbəyə aparan yol", Yaşar Bünyadın "Yol", "Qırx beşinci gün", Yaqub Əlioğlunun "Açar", Şirməmməd Nəzərlinin "Könüllü", Bəhruz Məmmədovun "Atamın əlləri", Elçinin "Ağadadaşın kişi sözü", Nüşabə Əsəd Məmmədlinin "Mənə bir nağıl danış", "Üç gün cənnətdə", Səhər Əhmədin "Qarabağdan gələn xəbər", Bahəddin Salmanın "Oyanış", Arif Ərşadın "Torpağa qarışan qan", Azad Qaradərəlinin "Mən sizdən ayrıldım, amma gülə-gülə", Kamran Nəzirlinin "Mənim sevimli yaddaşım", İradə Aytelin "Biz yenə görüşdük", Mənzər Niyarlının "O zəfər günləri günəş də bizimləydi", Kamran Yusifzadənin "Karusel", Sadıq Elcanlının "Möhlət", Murad Muradovun "Paslı açar", Günel Anarqızının "Sərhədsiz səma, Vahid Məmmədlinin "Hesab dərsi və ya müqəddəs 44", Cəlil Cavanşirin "Müharibə rapsodiyası", "Qəribə və maraqlı günlər", Orxan Həsəninin "Qəsəbəmizin payız ahəngi", Bahar Bərdəlinin "Şuşanın dağları", Aqşin Ağkəmərlinin "Ünvansız məktub", Fərid Məmmədzadənin "Cücərən ümidlər", Qərib Mehdinin "Məktub", Vaqif İsaqoğlunun "Mişel", Murad Muradovun "Xurma ağacı", Sona İsmayılovanın "Məhəbbətin gücü", Təvəkkül Boysunərin "Xoşbəxt göyərçinlər, xoşbəxt bayraqlar", Zemfira Məhərrəmlinin "Zəfər yolunun yolçuları" (sənədli hekayə), Yaqub Əlioğlunun "Güllü gəbə", Kamal Abdullanın "Konsert", "Səngərdəki səs" və b. göstərmək olar.

Kənan Hacının "Qələbəyə aparan yol" hekayəsinin ana xəttini hisslər, duyğular, yurda qayıtmaq arzusu, keçmişlə bağlı acı xatirələr təşkil edir. Kənan Hacının bu hekayəsində Vətən müharibəsindən əvvəlki hadisələrin xatırlanması fonunda insani duyğular, həyatdan götürülmüş hadisələrin, təbiətin obrazlı ifadələrlə təqdimi kimi əsas məsələlər qabardılır. Hekayədə "Qarabağ şikəstəsi" rəmzi-simvolik xarakter daşımaqla əsərin bədii dəyərini artırmış olur. Müəllif qəhrəmanını həyatda mübarizə aparmaq, çarpışmaqla çətinliklərin öhdəsindən gəlmək, qalib hissin məğlubedilməz olması ideyaları ilə silahlandıraraq onun gələcək nailiyyətləri üçün zəmin hazırlayır. Müəllif əsas qəhrəmanın dili ilə erməni faşistlərinin illərdir xalqımızın başına gətirilən faciələrin unudulmasından qorxaraq ata-babalarının taleyini yaşayan oğulların igid, cəsur bir vətəndaş kimi yetişməsi üçün bildiklərini, yaddaşına yazılan acı xatirələri danışmaqla özünü ruhən sakitləşdirməyə və

qisasın qiyamətə qalmayacağı ideyasını təlqin etməyə çalışır. Müəllif oxucunu hekayənin sonunda nikbin notlara kökləyərək hadisələrin sonrakı gedişatı üçün zəmin hazırlayır.

Yaşar Bünyadın “Yol” və “Qırx beşinci gün” hekayələri müharibənin yaşatdığı ağrı-acılarla doğma torpağa qovuşmağın sevincini yaşayan obrazların daxili-mənəvi aləminin qabardılması ilə seçilir. “Yol” hekayəsində otuz ildir ki, xəyallarında, yuxularında doğma kəndlərinə baş çəkən qocanın keçirdiyi sarsıntılar təsvir olunur. Uzun illər bu xəyallarla yaşayan qoca otuzillik həsrətdən sonra arzularının gerçəkləşəcəyi günü səbirsizliklə gözləyir. Lakin artıq gözləri tutulmuş, ayaqları taqətdən düşmüşdür. Müəllifin təsvirində bu hisslər o qədər təbii, canlı, həqiqətə yaxın təsvir olunur ki, oxucunu dərindən sarsıda, onun duyğularının alt qatına təsir edə bilir. Müəllifin əsas ideyası da bu ağrı və nisgilin daha dərindən duyulub dərk olunması, vətənpərvərlik hisslərinin aşılanmasıdır. Qocanın otuz illik həsrətdən sonra sonuncu dəfə xəyalən evlərinə gedib doğma yurdunun ətrini ciyərlərinə çəkməsini, uşaqlıq xatirələri ilə yenidən doğulmasını müəllif xüsusi emosional boyalarla təsvir edir.

“Qırx beşinci gün” hekayəsində fərdin daxili düşüncələri hadisə və əhvalatla vəhdət təşkil edərək əsərin strukturunu formalaşdırır. Arzusuna çatmış qəhrəmanın hüznlü keçmişinə qayıtması, acı xatirələri yaddaşında canlandırması müəllif təhkiyəsində özünəməxsus bədii ifadəsini tapır. Əsərin qəhrəmanı keçirdiyi sarsıntıların, yaşadığı hadisələrin müqabilində üsyan etməyərək gələcəyə ümidlə baxan, xoşbəxt olmağı bacaran bir qəhrəman tipidir. Müəllif hekayədə qabartdığı əsas mövzunu – 44 gün davam edən Vətən müharibəsi, qalib əsgərin yaşantıları, müharibənin və otuzillik işğalın acı nəticələrini cəmiyyətin əsas problemi kimi götürərək özünəməxsus bədii həllini verməyə çalışır. Hekayə yaranmaqda olan “qalib müharibə ədəbiyyatı”nın ən yaxşı nümunələrindəndir.

Nüşabə Əsəd Məmmədlinin “Mənə bir nağıl danış” hekayəsinin də əsas mövzusu Vətən müharibəsi, ordumuzun qələbəsi, torpaqlarımızın işğaldan azad olunması olsa da, əsərdə dərin, unudulmaz bir sevginin də şahidi oluruq. İztirablı sevgini də sonda vüsalla nəticələndirən müəllif hekayədə qalibiyyət motivini təlqin etməyə çalışır. Vətən uğrunda hər bir azərbaycanlının düşmənə qarşı birlik nümayiş etdirməsini xüsusi vurğulayaraq qəhrəmanını öz daxili yaşantıları ilə üz-üzə qoyur. Müəllif Turqutun anasının timsalında ləyaqətli, gözəl Azərbaycan qadınını əsərin mərkəzinə çəkməklə hadisələri bu obraz üzərində cəmləşdirir. Ana itkisi Turqutun ürəyində dərin yaralar açır. Anasının arzularını yerinə yetirmək, layiqli vətəndaş kimi yetişmək üçün dayanmadan çalışır. Hekayənin nikbin sonluqla bitməsi qəhrəmanın sonrakı taleyini müəyyən etmiş olur. Yazıçının təsvir və təhkiyəsi hadisələrin bu cür sonlandırılmasına rəvac verir.

Yaqub Əlioğlunun “Açar” hekayəsində açar detalı rəmzi xarakter daşıyır. Yurdun açarının öz əlimizdə olması doğma torpaqlara qayıtmağın mütləqliyi kimi mənalandırılır. Müəllif hekayənin qəhrəmanı Abbas müəllimin ata yurdunun erməni faşistlərindən təmizlənməsindən sonra cəbhə bölgəsinə səfər etməsini, yalın ayaqlarını yurdun torpağına basaraq ətrini ciyərlərinə çəkməsini, nifrət və sevinc duyğusunu eyni anda yaşamasını fərdin daxili yaşantılarının təcəssümü kimi qələmə alır.

Şirməmməd Nəzərlinin “Könüllü” hekayəsində də Vətən müharibəsinə yola düşən gənc doktorant Şirvanın müharibə yolu, keçirdiyi hisslər, qələbə sevinci, Minavərə olan hissləri qarışıq duyğular axarında təqdim olunur. Şuşa döyüşlərində qolunu itirən gənc alimin göstərdiyi şücaəti danışmaq istəməməsi təvazökarlıq nümunəsi kimi oxucunun mənəvi aləmində iz buraxır. Minavərin Şirvana olan sevgisini etiraf etməsi, əsərin nikbin notlarla tamamlanması hekayənin təsir gücünü artırır. Müharibə həqiqətlərinin, həyat materialının təqdimi baxımından əsərin bədii dəyəri danılmazdır.

Səhər Əhmədin “Qarabağdan gələn xəbər” hekayəsi müharibə dövrünün bədii mənzərəsini verən, zamanın əsas problemlərini işıqlandıran əsər kimi yadda qalır. Müharibədən gələn xəbərlər hamını narahat edirdi, cəbhəyə oğul yola salan valideynlər hər an pis xəbər eşidəcəyi qorxusu ilə yaşayırdı. Hekayədə Tahirin ölüm xəbərini eşidən yaxınları, bu xəbərin doğru olub-olmadığını öyrənmək üçün Gəncəyə yola düşürlər. Yaşanan hadisələrin təsirindən bütün ailənin keçirdiyi hisslər, müharibə ab-havasının yaratdığı acı təəssürat müəllif qələmində orijinal səslənir. Oğlunun şə-

hid olmadığını eşidən ananın yaşadığı sevinc duyğusu ölçüyəgəlməz dərəcədə təbii və inandırıcı təsir bağışlayır.

Kamran Nəzirlinin "Mənim sevimli yaddaşım" hekayəsində də sevginin hər şeyə qadir olduğunun bir daha şahidi oluruq. Şuşa döyüşlərində ağır yaralanan İlham Teymurovun yaddaşı itib, heç kimi tanımır. Onun bu vəziyyəti ata-anasını çox sarsıdır, heç bir həkim, heç bir dərman qazinin dərdinə çarə olmur. Sevdiyi qızı – İlahəni gördükdən sonra yaddaşı özünə qayıdır. Sevginin bu konteksdə təsviri nağıl-dastan ənənəsinə söykənir. Yazıçı qəhrəmanını psixoloji sınaqdan keçirərək xoşbəxt bir gələcəyə aparmaq üçün əlindən gələni edir. Övladını sağlam görmək istəyən hər bir ana kimi Məsmə ana da oğlunun bu vəziyyətinə üsyan edir. Müharibənin acı nəticələrinin verdiyi iztirab oxucunu həyəcanlandıra, onun şüuraltına təsir edə bilir. Qalibiyyətin asan başa gəlmədiyini obrazların diliylə anlatmağa çalışan müəllif istəyinə nail olur, ideya-məzmunun bu cür açılması oxucunu təsirləndirir.

İradə Aytelin "Biz yenə görüşdük" hekayəsində müharibənin gətirdiyi bədbəxtlik, ağrı-acı cəmiyyətin əsas problemi kimi götürülərək bir əhvalat kontekstində izlənilir. Hekayənin qəhrəmanı gənc Əsmər hərbçilər haqqında reportajlar hazırlayır. Evlərinə müxbir kimi getdiyi şəhidin onun keçmiş sevgilisi olduğunu öyrəndikdə keçirdiyi hiss, yaşadığı təəssürat yazıçı qələmində üzüntülü məqamlarla müşayiət olunur. "Ona elə gəldi ki, dili od tutub alışdı. Alov Əsmərin bütün bədənini sardı. Artıq hər yer alışıb-yanırdı. Əsmər isə bədənini qarsan alovun içərisində "Orxan! Orxan! Orxan...", - deyə təkrarlayırdı. O, hər dəfə Orxan dedikcə alov daha da güclənir, nəfəsi tutulur, ayaqları sustalırdı" [7, s.180].

Orxan hərbi xidmətdə olarkən Əsməri Ruslan adlı bir oğlan qaçırır. Əsmər həyatını uzaq bir diyarda, sevmədiyi adamla paylaşmalı olur. Ruslanın ölümündən sonra qızlarıyla birlikdə vətənə qayıdan Əsmər müxbir kimi fəaliyyətə başlayır. Qəhrəman hiss edir ki, artıq onun üçün yaşamağın heç bir mənası qalmayıb, sadəcə övladlarına görə ayaqda durmaq məcburiyyətindədir. Obrazın daxilindən süzülüb gələn acı xatirələr heç vaxt onu rahat buraxmır. Müəllif qəhrəmanını bu cür situasiyadan necə çıxartmağın yollarını axtararkən onu şəhid Orxanın böyüdülmüş şəkli ilə üz-üzə qoyur.

Mənzər Niyarlının "O zəfər günləri günəş də bizimləydi" hekayəsinin qəhrəmanı müharibənin içindən keçmiş, onun ağrı-acısını dadmış, Füzuli istiqamətində döyüşdə ayağının birini itirmiş Səid Şirinovdur. Öz komandirini xilas edərkən ağır yaralanan Səid hospitalda uzun müddət müalicə alır, lakin qəhrəmanın artıq səbri tükənmişdir, düşdüyü vəziyyətlə heç cür barışa bilmir, yenidən cəbhəyə getmək, döyüşlərə qatılmaq arzusundadır. Hekayədə canlılıq, obrazlılıq, emosionallıq kifayət qədərdir. Əsərdə birinci Qarabağ müharibəsinin izlərinə rast gəlinir, Xocalıda törədilmiş qətliam, qaçqın və məcburi köçkünlərin həyat şəraiti inandırıcı bədii lövhələrlə təqdim olunur. Müəllif qəhrəmanının özü ilə söhbəti, daxili-mənəvi aləmi, düşüncələrini çox ustalıqla qələmə alır. Yazıçının həyat faktına yanaşması, problemin qoyuluşu və həlli, təsvir predmeti obrazların nitqində özünəməxsus formada əksini tapır. Canlı müharibə gerçəkliyinin dəhşətlərindən saf, təmiz sevgi münasibətlərinə, insani duyğuların təcəssümünə qədər konkret insan taleyi fonunda təsvirə edilir. Qəhrəmanını bütün çətinliklərdən çıxarıb həyatın axarına buraxan müəllif xoşbəxtliyin insanın iç dünyasında açdığı yeni səhifələri yüksək bədiiliklə tərənnüm edir. Nənəsinin, dostu Nailin arzularını yerinə yetirib daxilən rahatlıq tapan Səidi hadisələrin sonrakı axarı o qədər də maraqlandırmır, doğma torpağının işğaldan azad olunması, dostu Nailin ruhunun rahatlıq tapması onun üçün ən böyük xoşbəxtlik idi.

"- Rahat yat, nənə, düşməndən intiqamımızı alırıq. Atamın da, anamın da, o körpə qardaşımın da, bütün şəhidlərimizin intiqamını. Az qalıb, lap az qalıb. Düşmənin başını əzirik. - O, gözlərini qəbir daşından çəkmədən Gülgəz nənəni, onun dərd içində qovrulan simasını yadına sala-sala kövrəlirdi. Sonra özünü ələ alaraq qəbirdən aralanıb şəhidlərin uyuduğu xiyabana adladı, Nailin qəbrinə yaxınlaşdı. Əlindəki hərbi paltarını dostunun qəbrinin üstünə qoydu. Hərbi paltarının üst cibində dostuna çatacaq məktub da yazmışdı. Bir xeyli dayanıb Nailin şəklinə baxdı. Sonra qoltuq ağacının köməyilə çevrilib Nailin qəbrindən aralanmaq istədi. Bu vaxt Dilarənin arxasında dayan-

dığını gördü. Bir andaca duruxdu. Qızın gözü nəmliydi. Yaxınlaşıb Səidin qoluna girdi. - Şükür, sağ salamatsan. Neçə vaxt idi səni axtarırdım. Qardaşımla. Niyə xəbər eləmirdin? Hə?" [5]

Sadıq Elcanlının "Möhlət" hekayəsində birinci Qarabağ müharibəsindən başlanan ruhi-mənəvi ağrıların uzun illər insanların yaşam tərzinə təsirsiz ötüşmədiyindən, onların daxili dünyasında yaratdığı sarsıntılardan bəhs edilir. Müəllif özü hekayəni kinonovella adlandırır. Hekayədə müharibə əzablarından yorulub cana doymuş "ruh" dil açıb danışır. Dinləyici (müəllif) bu insanın başına gətirilən fəlakətləri dinləyərkən mənən sarsılır, dərin psixoloji hallar keçirir. Ruhun söhbətindən bəlli olur ki, 18 yaşlı şuşalı oğlan (ruh) müharibədə girov düşmüş yüzlərlə soydaşı ilə birgə yüksək gərginlikli elektrik xətti qoşulmuş tikanlı məftillərlə əhatələnmiş qoyun yatağında saxlanılır. Elə bütün hadisələr də bundan sonra baş verir. Erməni xisləti öz işini görür. Bütün bunlar azmış kimi cavan oğlanı qoca bir xarici vətəndaşın ürəyini dəyişmək üçün donor olaraq satırlar. Bədəninin müxtəlif nahiyələri ayrı-ayrı ölkələrə satılan cavan oğlanın ruhu rahatlıq tapa bilmir.

Müharibə mövzusunun bu cür işlənməsi, təhkiyə tərzi, obrazlı ifadə və təsvir əsərin bədii dəyərinin göstəricisidir. "Dərd dalğa-dalğa dikəlib dənizə dönmüşdü, səbrin son sahillərini oya-oya uçurur, qərq edirdi. Duyğular dona-dona daşa, çınqıla çevrilir, ürəklərin burum-burum burulan boranlı göy üzündən gecə-gündüz daş-dolu yağırdı; daşlı-çınqıllı yağı yollar ümidlərin ayağını əzir, qəlbini qanadırdı" [4].

Müəllif təxminən otuzillik bir dövrü əhatə edən hekayəni Şuşanın azad olunması xəbəri ilə bitirməklə zaman və məkan strukturunun qəhrəmanın daxilində yaratdığı təlatümlərə son qoyur. Ruhunun belə başqa ölkədə qalmasına razı olmayıb Vətənə qaytarır.

Vahid Məmmədlinin "Hesab dərsi və ya müqəddəs 44" adlandırdığı hekayəsində müharibə həqiqətlərinin rəqəmlərin dili ilə bədii təhlilinin şahidi oluruq. Yazıçı əsərdə məğlubiyyət və qalibiyyət motivlərinin insan xarakterində hansı dəyişikliklərə səbəb olduğunu qəhrəmanının simasında özünəməxsus ibrətamiz mənalandırmalarla təsvir edir. On yaşlı İlkinin başına gələnlər oxucunu dərindən sarsıdır. Şuşada məktəbə gedərkən İlkinə riyazi əməllər öyrədən erməni Samvel sonradan onun doğmalarının qatilinə çevrilir. Şuşa türməsində girov saxlanan balaca İlkinə qarşı törədilən insanlığa sığmayan işgəncələr, Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndəsi Admirale Ankoranın onu xilas edərək vətəninə qaytarması, Şuşanın alınmasında İlkin Kərimlinin tağım komandiri kimi göstərdiyi xidmətlər hekayənin mövzu və məndəricəsini təşkil edir. Sonralar İlkin Kislovodskda təsadüfən rastlaşdığı Samveldən qisasını alır. İlkinin Qarabağ uğrunda döyüşlərə qatılaraq Şuşa türməsinin divarlarına öz hesabını yazaraq düşməndən mütləq intiqamını alması ilə müəllif qəhrəmanının əxlaqi-mənəvi cəhətdən yüksəlişinə nail olur.

Bahar Bərdəlinin "Şuşanın dağları" hekayəsi Şuşanın işğaldan azad olunmasına həsr olunmuşdur. Hekayədə intiqam hissi ilə böyüyən Vüsalın doğma kəndlərinə qovuşması epizodik məqamlarla təsvir olunur. Qəhrəmanın daxilində yaşanan duyğular hekayədə təbii və emosional səslənir. "Yolu necə gedirdi bilmirdi, amma hara getdiyini yaxşı bilirdi! Birbaşa evlərinin üstünə çıxdı... Bu idi! Hə-hə! Bu nar, bu da tut... gilas ağacı yoxdu. Evə bitişik kafe-çayxana vardı. Görünür, evdən anbar kimi istifadə ediblər. Yarıaçıq qapıdan içəri girdi. Otaqda köhnə divan, stol-stullar... Baqqal dükanını xatırladırdı. Amma bir istilik, həzinlik, doğmalıq vardı..." [6] Müəllif iki müharibənin insan taleyində yaşatdığı ağrılı məqamları qəhrəmanın simasında ümumiləşdirərək onu ideallaşdırır. Vüsalın qaçqın kimi anasının qucağında sürünərək keçdiyi yolu qalib əsgər simasında geri qaytarmaqla onun mənəvi cəhətdən yüksəlişinə nail olur.

Qərib Mehdinin "Məktub", Çingiz Abdullayevin "Körpə və kürən pişik balası", Nüşabə Əsəd Məmmədlinin "Üç gün cənnətdə" hekayələrində Gəncə hadisələri xatırlanır, günahsız insanların faciəvi şəkildə həlak olması oxucuda dərin kədər və təəssüf doğurur.

## Nəticə / *Conclusion*

Bu ərəfədə yazılan hekayələri ümumiləşdirməli olsaq:

1) Məğlubiyyətin yaratdığı qisas hissinin uzun illər insanların psixologiyasında yaratdığı mənəvi ağrıların qələbə ruhuna köklənməsinin bədii inikası;

2) Zəfər sevinclərindən ilhamlanan yazıçıların vüsala çatdırdığı sevgi obrazları;

3) Qələbənin qazanılmasında, doğma torpaqlara qovuşmağın sevincini yaşadan unudulmaz şəhid, qazi obrazlarının ibrətamiz təsviri;

4) Sosial-mənəvi problemlərə yeni kontekstdən baxış;

5) Yurda qayıdış motivinin bədii cəhətdən dəyərləndirilməsi kimi bölgünün aparılmasını məqsədəuyğun hesab edə bilərik.

**Ədəbiyyat / *References***


1. 44 fəsil (hekayələr). Bakı: TEAS Press Nəşriyyat evi, 2021.
2. Azad Qaradərəli. Bakı: Mücrü, 2021.
3. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/7217-boyuk-zeferin-poetik-dastani
4. https://edebiyyatqazeti.az/news/gundem/6775-susanin-daglari
5. https://edebiyyatqazeti.az/news/proza/6528-mohlet-kinonovella
6. https://edebiyyatqazeti.az/news/proza/7405-o-zefer-gunleri-gunes-de-bizimleydi
7. İradə Aytel. Biz yenə görüşdük. 44 fəsil (hekayələr). TEAS Press Nəşriyyat evi, 2021.
8. Qarabağ Azərbaycandır. Bakı: Mücrü, 2020.
9. Rahid Ulusel. “Vətən Müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi”. Bakı: Elm və təhsil, 2021.
10. Tehran Əlişanoğlu. “Vaqifə qayıdış həm də elə Qarabağın tarixinə qayıtmaq deməkdir”. Bütün yollar Şuşaya aparır. AYB, MİMTA, 2021.


## Рассказы Отечественной войны

**Ханифа Салифова**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: henife.selifova87@mail.ru

**Резюме.** Победоносное окончание 44-дневной Отечественной войны, сопровождалось чрезвычайным подъёмом в литературе, как и во всех отраслях. В содержании вновь созданных произведений образ воина-победителя был воплощён в сочетании с образами Родины, скорбящей матери, любимой девушки. В статье к анализу привлечены конкретные литературные образцы повестей о победоносной войне. Основная цель статьи состоит в рассмотрении мотивов в новой парадигме исполненных духом победы военных повестей, содержания, идеи, внутреннего духовного мира, патриотизма образов.

**Ключевые слова:** Азербайджан, Карабахская тема, Отечественная война, повесть, военная литература